# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## "Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında

"Ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili Qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 158 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili Qaydası" təsdiq edilsin (əlavə olunur).

**Naxçıvan Muxtar Respublikasının Baş naziri** **Səbuhi Məmmədov**

Naxçıvan şəhəri, 9 iyun 2021-ci il

№ 141

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il "____" iyun tarixli _____ nömrəli Qərarı ilə təsdiq edilmişdir.

**Naxçıvan Muxtar Respublikasının ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili**

**Q A Y D A S I**

1. Bu Qayda Naxçıvan Muxtar Respublikasında ali təhsil müəssisələrində orta ixtisas təhsilinin təşkili qaydasını müəyyən edir.

2. Ali təhsil müəssisəsində orta ixtisas təhsili subbakalavr ixtisas dərəcəsinin verilməsi ilə başa çatır. Ümumi orta təhsil bazasında ali təhsil müəssisələrinə orta ixtisas təhsili almaq üçün qəbul olunanlar həm də tam orta təhsil alırlar.

3. Ali təhsil müəssisələrində orta ixtisas təhsili proqramlarına və onların həyata keçirilməsinə qoyulan ümumi tələblər qanunvericiliyə əsasən dövlət təhsil standartları və orta ixtisas təhsili pilləsi üzrə təhsil proqramları ilə müəyyənləşdirilir.

4. Ali təhsil müəssisələrində orta ixtisas təhsili pilləsinə tələbə qəbulu qanunvericiliyə uyğun aparılır.

5. Ali təhsil müəssisələrində orta ixtisas təhsili orta ixtisas təhsili pilləsinin məzmununu və mənimsəmə qaydalarını müəyyən edən və təsdiq edilmiş təhsil proqramları (kurikulumları) üzrə həyata keçirilir.

6. Ali təhsil müəssisələrində orta ixtisas təhsili pilləsi üzrə tədris qanunvericiliyə uyğun kredit sistemi əsasında təşkil olunur.

7. Ali təhsil müəssisələrində orta ixtisas təhsili pilləsi üzrə təhsilalanların attestasiyası, o cümlədən yekun attestasiyası orta ixtisas təhsili pilləsində təhsilalanların attestasiyasının, o cümlədən yekun attestasiyasının aparılması qaydaları əsasında həyata keçirilir.

8. Ali təhsil müəssisələrində orta ixtisas təhsilini başa vuran məzunlara müvafiq qaydada dövlət nümunəli sənəd - diplom verilir.

9. Ali təhsil müəssisələrindən alınmış orta ixtisas təhsili haqqında sənəd sahibinə uyğun ixtisaslar üzrə ali təhsil müəssisəsinə daxil olmaq hüququ yaradır və növbəti təhsil pilləsinin bakalavriat səviyyəsində ali təhsil almaq üçün əsas hesab edilir.